# Gəlin gedək Qarabağa



**Nəzrin Cəlilova,**

*Bakı Dövlət Universiteti nəznində Gənc İstedadlar Liseyinin 8-ci sinif şagirdi*

Bir arzum var artıq mənim,
Qarış-qarış gəzim indi,
Torpağını, hər daşını,
Bərk-bərk öpüm Vətənimin.

Axı necə dözmüşük biz?
Bu ədalətsiz ayrılığa.
Necə nəfəs almışıq biz?
Otuz illik intizara.

Artıq yetər, həsrət bitdi!
Bitdi köçkün, qaçqın adım!
Öz evimdə, öz obamda,
Dalğalanır öz bayrağım!

Gəlin gedək Qarabağa!
Küskün qalmış o yaylağa,
Bərpa edib biz kəndləri,
Qovuşduraq köçkünləri.

Havalansın Xanın səsi,
Qarabağın Şikəstəsi.

Azərbaycan müəllimi.- 2021.- 3 dekabr.- S.14.